


***Bu gün "TOKİO 2020" Yay Paralimpiya Oyunları başa çatır. Azərbaycan paralimpiya millisi yarışlarda, sözün əsl mənasında, fantastik nəticə göstərdi. Belə ki, millimiz cəmi 36 idmançı ilə təmsil olunduğu paralimpiya oyunlarını 19 medalla tamamlayıb. Bu medallardan 14-ü qızıl, 1-i gümüş, 4-ü isə bürüncdür. Bu o deməkdir ki, yarışan idmançılarımızın yarısından çoxu medal qazanıb. Komandamıza 11-ci qızıl medalı qazandıran Vəli İsrafilov 100 metr məsafəyə "brass" üsulu ilə üzgüçülük yarışında olimpiya rekordunu təzələyərək çempion olub. 19 yaşlı V.İsrafilov paralimpiyalar tarixində ən gənc qızıl medal qazanan azərbaycanlı olub. Yarışların Azərbaycan üçün son günü idmançımılarımız Lamiyə Vəliyeva və Orxan Aslanov fəxri kürsünün ən yüksək pilləsinə qalxaraq Yaponiyanın paytaxtında himnimizi səsləndiriblər.***




# Paralimpiyaçılarımızın Tokio uğurları qürurvericidir

Millimiz bu göstərici ilə doqquzuncu pillədədir. Keçən saylarımızda qeyd etdiyimiz kimi, bu, ötən yay paralimpiya oyunları ilə müqayisədə çox yüksək nəticədir. Xatırladaq ki, 2016-cı il Rio Yay Paralimpiya Oyunlarında millimiz cəmi 1 qızıl medal qazana bilmişdi. Əlbəttə, bu nəticələr ölkəmizdə paralimpiya idman növlərinə, milli komandamıza göstərilən xüsusi qayğının nəticəsidir.












Prezident İlham Əliyev hər il beynəlxalq yarışlarda nailiyyət əldə edən paralimpiya milli komandamızın idmançı və məşqçi heyətini orden və medallarla mükafatlandırır. Onların həyat səviyyəsinin yaxşılaşdırılması üçün də dövlət səviyyəsində müvafiq addımlar atılır. İdmançılarımız mənzil və fərdi avtomobillərlə təmin edilirlər.

Təəssüflər olsun ki, bir neçə həftə əvvəl yekunlaşan Tokio Yay Olimpiya Oyunlarında Azərbaycan millisi gözlənilən nəticəni göstərə bilmədi. Təkcə onu demək kifayətdir ki, millimiz yarışları qızıl medalsız tamamladı. Paralimpiya milli komandamızın əldə etdiyi uğurlar bu məyusedici nəticəni bir qədər unutdursa da, zənnimizcə, gələcək yarışlara daha ciddi hazırlaşmaq lazımdır.

Paralimpiyaçılarımızı mükəmməl çıxışlarına görə təbrik edir, növbəti yarışlarda onlara uğurlar arzulayırıq. Ümid edirik ki, "əngəlsiz" idmançılarımız da onların uğurundan nəticə çıxaracaq və gələcək oyunlarda daha inamla yarışacaqlar.

***İmran ƏLİYEV, "Xalq qəzeti"***